# İnsanın hiyləgər düşməni: ŞEYTAN

- **ONU TANIYIN,**
  **O, ÜÇ DÜŞMƏNDƏN BİRİDİR,**

- **ONDAN QORUNUN,**
  **O, MƏKRLİDİR,**

- **O, HİYLƏGƏRDİR,**
  **O, HƏM DƏ ZƏİFDİR,**

- **O, TƏKƏBBÜRLÜDÜR,**
  **O, CƏHƏNNƏMLİKDİR.**

<u>İnsanın üç düşməni var:</u>

1- ÖZÜ - yəni nəfsi, həvəsi, istəkləri, tamahı, məziyyətləri və s.
2- ŞEYTAN – cin və insanlardan olan, Allahın yolundan azan və azdıranlar.
3- KAFİR – Allahı, mələklərini, kitablarını, peyğəmbərlərini, Axirət həyatını, qəza-qədəri inkar edənlər.

Şeytanın insanla olan hekayəsi insanın Allah tərəfindən xəlifə təyin edilməsiylə başlayıb, qiyamətə qədər davam edəcək bir prosesi əhatə edir. Bu, Adəm əleyhissalamla başlayan, ondan sonra da zürrüyəti tərəfindən davam etdirilən sürəkli bir düşmənlikdir. Allah-təala və elçisi biz insanları şeytan və hiylələrindən qorunmaq üçün xəbərdar etmişdir:

**«Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər, Allah isə sizə bağışlanmaq və bərəkət vədəsi verər…»** *(əl-Bəqərə, 268);*

**«Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə** *(islama)* **gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir!»** *(əl-Bəqərə, 208);*

«*(Münafiqlərin Bəni Nəzir yəhudilərini aldatması)* **Şeytana** *(Şeytanın insanı aldatmasına)* **bənzəyir. O, insana: “Kafir ol!” –deyər.** *(İnsan)* **kafir olan kimi** *(Şeytan onu qoyub qaçaraq)*: **“Mənim səninlə heç bir əlaqəm yoxdur. Mən aləmlərin Rəbbi olan Allahdan qorxuram!” –deyər»** *(əl-Həşr, 16).*

Risaləmizdə şeytanın hiylələrini bilərək bunlardan çəkinmə, ondan qorunma yollarını öyrənməyə və ona necə qalib gəlməyə dair bəzi məsələlərə yer verməyə çalışacağıq. Əlbəttə, digər risalələrimizdə olduğu kimi bu risalədə də qaynağımız Quran və Allah elçisinin s.a.v.) sünnəsidir.

Uğur Allahdandır. Ondan diləyimiz bu əməlimizi hər kəs üçün bir öyüd etməsidir.

Allah bizləri haqlarında: «*(Ey müsəlmanlar!)* **Siz insanlar üçün zahirə çıxarılmış ən yaxşı ümmətsiniz. Yaxşı işlər görməyiəmr edir, pis əməlləri qadağan edir və Allaha inanırsınız»** *(Ali-İmran, 110)* ayəsinin nazil olduğu sələf-salihin kimi xeyirli bir ümmət etsin və bizi onların yollarından ayırmasın. Amin!

❖ <u>Şeytanın yaradılışı:</u> «*(Cinlərin babası)* **can tayfasını** *(və ya İblisi)* **daha öncə** *(insandan əvvəl)* **tüstümüz oddan xəlq etmişdik»** *(əl-Hicr, 27)*;

«*(İblis)* **dedi: “Mən ondan daha yaxşıyam. Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmısan!”»** *(Sad,76; əl-Əraf, 12)*;

❖ <u>İblis şeytandır və kafirdir:</u> **«Biz mələklərə: “Adəmə səcdə edin!” –dedikdə İblisdən başqa** *(hamısı)* **səcdə etdi.** *(Yalnız)* **o təkəbbürlənərək imtina etdi və kafirlərdən oldu»** *(əl-Bəqərə, 34).*

❖ <u>Şeytan insan və cinlərdən ola bilir:</u> **«Beləcə, Biz hər bir peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq…»** *(əl-Ənam, 112; əlavə bax: ən-Nas, 6)*.

❖ <u>Şeytan Tağutdur:</u> **«Hər kəs Tağutu** *(Şeytanı və ya bütləri)* **inkar edib Allaha iman gətirərsə, o, artıq** *(qırılmaq bilməyən)* **ən möhkəm bir ipdən yapışmış olur… Kafirlərin dostu isə Tağutdur** *(şeytanlardır)*» *(əl-Bəqərə, 256-257)*.

❖ <u>Şeytanın lənətlənməsi və Gənnətdən qovulması:</u> «*(Allah)* **buyurdu: “Oradan çıx. Sən** *(Cənnətdən)* **məlunsan!***(Dərgahımdan qovulmuş və rəhmətimdən kənar edilmişsən!).* **Sən qiyamət gününə qədər lənətlənmişsən!”»** *(əl-Hicr, 34-35; əl-Əraf, 13)*.

❖ <u>İblisə möhlət verilməsi:</u> «*(İblis)* **dedi: “Mənə qiyamət gününə qədər möhlət ver!”** *(Allah)* **buyurdu: “Sən möhlət verilənlərdənsən!”»** *(əl-Əraf, 14-15; əl-Hicr, 36-37)*.

❖ <u>İblisə verilən möhlətin hikməti:</u> Allahın hər şeyi əzəli olaraq bilməyinə rəğmən yenə bəndələrinə olan rəhməti üzündən, şeytana uymamaq xəbərdarlığını etməklə, əks təqdirdə qiyamət günü nə üçün cəzalandıq sualına cavab, Öz adilliyi ilə ədalətli hökm verdiyini göstərmək, qazandığımız aqibətin öz seçimimiz olduğunu bildirmək üçün rüsxət vermişdir:

«**Əslində** *(İblisin)* **onlar üzərində heç bir hökmü yoxdur. Lakin Biz axirətə inananla ona şəkk edəni ayırd edib bilmək üçün** *(İblisə bu imkanı verdik)*. **Sənin Rəbbin hər şeyi hifz edəndir!** *(Möminlərin və kafirlərin əməllərini mühafizə edər, qiyamət günü hərəyə öz əməlinin cəzasını verər)*» *(Səba, 21)*.

❖ Şeytan söhbətlərə xəlvəti qulaq asar: «**Lakin** *(şeytanlardan)* **kim** *(mələklərin söhbətinə)* **xəlvəti qulaq assa, onu odlu bir axan ulduz təqib edər** *(və üstünə düşüb yandırar)*»*(əl-Hicr, 18)*.

❖ Şeytan insana açıq-aşkar düşməndir: «**Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir!**»*(əl-Bəqərə, 208)*.

❖ Şeytan savaşan bir düşməndir: O insana qarşı duyduğu kin və qısqanclığı üzündən ümmətin hər bir fərdinə qarşı amansız bir savaş elan etmişdir. Onların yollarında pusqular qurub aldatmaq üçün Allahdan izin istəmiş və bəzi hikmətlərə görə bu izin ona verilmişdir. Bundan sonra şeytan pislikləri aşılamaq surəti ilə insanları haqq yoldan uzaqlaşdırmaq və azdırmaq üçün daha azad hərəkət etməyə başlamışdır:

«*(İblis)* **dedi: "Ey Rəbbim! İnsanların diriləcəkləri günə qədər mənə möhlət ver!"** *(Allah)* **buyurur: "Sən möhlət verilənlərdənsən. Ancaq məlum vaxtın gününə qədər!"** *(İblis)* **dedi: "Ey Rəbbim! məni azdırmağına əvəz olaraq and içirəm ki, mən də onlara (insanlara pis əməllərini, günahlarını) yaxşı göstərib onların hamısını yoldan çıxaracağam!"**» *(əl-Hicr, 36-39).*

❖ Təkəbbürlüdür: «**Biz mələklərə: "Adəmə səcdə edin!" –dedikdə İblisdən başqa** *(hamısı)* **səcdə etdi.** *(Yalnız)* **o lovğalanaraq imtina etdi və kafirlərdən oldu**» *(əl-Bəqərə, 34).*

❖ Şeytan insanı pis və həyasız işlərə sövq edir: «**O sizə ancaq pis və murdar** *(həyasız)* **işlər görməyi və Allaha qarşı bilmədiyiniz şeyləri deməyi əmr edər**» *(əl-Bəqərə, 168)*.

❖ İnsanları puç xülyalara salır və yalan vəd verir: «**Onları hökmən** *(doğru yoldan)* **sapdıracaq,** *(puç)* **xülyalara salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allahın yatdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm! Allahı atıb Şeytanı özünə dost tutan şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır.** *(Şeytan)* **onlara vədlər verir, ürəklərində arzular oyadır. Lakin Şeytan onlara yalnız yalan vədlər verir**» ***(ən-Nisa, 119-120).***

❖ Şeytanın yoldaşlığı: «**Öz mallarını xalqa göstərmək xatirinə xərcləyənləri, Allaha və axirət gününə inanmayanları da** *(Allah sevməz)*. **Şeytanla yoldaşlıq edənlərin yoldaşı necə də pisdir!**» *(ən-Nisa, 38)*;

«**Hər kəs Rəhmanın zikrindən boyun qaçırsa, Biz ona Şeytanı urcah edərik və onun** *(Şeytanın)* **yaxın dostu olar.** *(Şeytanlar)* **onları doğru yoldan çıxardar, onlar isə özlərinin haqq yolda olduqlarını güman edərlər! Nəhayət, o, hüzurumuza gəldikdə belə deyər: Kaş ki, mənimlə sənin aranda şərqlə qərb arasındakı qədər uzaqlıq olaydı. Sən nə pis yoldaş imişsən!**» *(əz-Zuxruf, 36-38)*.

❖ Münafiqlərin dostudur: Möminlər üzərində heç bir hakimiyyəti olmayan şeytan kafirlərin, həm də ziyana uğrayan münafiqlərin dostudur: «**Allah onların hamısını dirildəcəyi gün onlar sizə** *(yalandan)* **and içdikləri kimi Allaha da and içəcək və** *(bununla axirətdə)* **bir şey qazanacaqlarını zənn edəcəklər. Bilin ki, onlar əsla yalançıdırlar! Şeytan onlarıa hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar şeytanın firqəsidirlər. Bilin ki, şeytanın firqəsi –məhz onlar ziyana uğrayanlardır!**» *(əl-Mücadələ, 18-19).*

❖ Kasıblıqla qorxudur, pislikləri əmr edir: «**Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər, Allah isə sizə bağışlanmaq və bərəkət vədəsi verər...**» *(əl-Bəqərə, 268);*

❖ Mübahisə etməyi və Allah haqqında bilməyərək danışmağı əmr edir: «**Allah haqqında heç bir şey bilmədən mübahisə edən və Allaha asi olan hər bir şeytana uyan insanlar da vardır**» *(əl-Həcc, 3).*

❖ Müsəlmanların arasını vurmağa çalışır: «**Bəndələrimə de: "Gözəl sözlər söyləsinlər". Şeytan onların arasına fitnə-fəsad sala bilər. Həqiqətən, Şeytan insanın açıq düşmənidir!**» *(İsra, 53);* «**...Şeytan mənimlə qardaşlarımın apasını**

**vurduqdan sonra...»** *(Yusif, 100).*

Allahın elçisi (s.a.v.): *"Şeytan Ərəb yarımadasında namaz qılanların özünə ibadət etməsindən ümidini kəsmişdir. Ancaq onların arasını vurmaqla təsəlli tapır"*- buyurmuşdur *(Müslim).*

❖ İsrafçıların qardaşıdır: **«Həqiqətən, sağa-sola səpələyənlər şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!»** *(əl-İsra, 27).* İnsan nədə israf edərsə, şeytan da ona ortaq olur.

❖ Adları dəyişdirir: **«Şeytan ona** *(Adəmə)* **vəsvəsə edib belə dedi: "Ey Adəm! Sənə əbədiyyət ağacını və köhnəlib xarab olmayacaq bir mülkü göstərimmi?"»** *(Taha, 120).* İblis sözü gedən ağacın adı o cür olmadığı halda dəyişdirmiş və "əbədilik ağacı" adını uydurmuşdur.

❖ Mərasimi musiqidir: **«Onlardan kimi bacarırsansa, səsinlə yerindən oynat,...»** *(əl-İ sra, 64).* Şeytanın səsi musiqi, tütəyi isə insanların bir çoxunu onunla aldatdığı musiqi alətləridir.

❖ Allahın yaratdıqlarını dəyişmək istər: «Onları hökmən ***(doğru yoldan)*** sapdıracaq, ***(puç)*** xülyalara salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allahın yatdıqlarına dəyişiklik verməyi əmr edəcəyəm!» ***(ən-Nisa, 119).***

❖ Alış-verişi, yeməyi, içməyi sol əllə edər: Allahın elçisi (s.a.v.) buyurmuşdur: *"Sizdən hər biriniz sağ əliylə yesin, sağ əliylə içsin, sağ əliylə alsın və sağ əliylə versin. Çünki şeytan sol əllə yeyər, sol əllə içər, sol əllə alar və sol əllə verər"* (İbni Macə).

❖ Camaatla namaz qılmayanlara qalib gəlmişdir: Allahın elçisi (s.a.v.): *"Bir kənddə və ya çöldə üç nəfər olsa, namazı camaatla qılmasalar, şeytan onları əhatəyə alar. Camaata möhkəm sarılın. Çünki qurd ancaq sürüdən uzaq düşən qoyunu yeyər"*– buyurmuşdur *(Əbu Davud).*

❖ Namaz əsnasında mömin bəndəyə təsir edir: Allahın elçisi (s.a.v.): *"Şeytan sizdən birinizə namazda ikən təsir edər və o neçə rükət qıldığını bilmədiyi ana qədər şeytandan xəbərdar olmaz. Belə vəziyyətə düşsəniz, salam verməzdən əvvəl oturuşda ikən iki səhv səcdəsini icra edin, sonra salam verin"*- buyurmuşdur *(Əbu Davud).*

❖ Səfdə tapdığı boşluğa girər: Allahın elçisi (s.a.v.) demişdir: *"Səfləri sıxlaşdırın. Mələklərin səfə durduğu kimi səfdə düzülün, topuqlarınızı (yanınızdakı yoldaşın topuqlarına) birləşdirərək boş yer qoymayın. Çiyinlərinizi qardaşlarınızın çiyinlərinə yüngünlcə toxunduraraq şeytan üçün boş yer qoymayın. Kim bir səfi doldurarsa, Allah da onun (günahlarını) doldurar*[1]*. Kim də bir səfi pozarsa, Allah da onun (əməllərini) pozar*[2]*"* (Əbu Davud).

❖ Pis yuxu göstərir: Allahın elçisi (s.a.v.): *"Biriniz gözəl bir röya görsəniz (bilsin ki), o ancaq Allah tərəfindəndir. Bunun üçün Allaha həmd etsin və sevdiklərinə danışsın. Əgər pis bir röya görərsə (bilsin ki), o da ancaq şeytandandır (kimsəyə danışmasın və şeytandan Allaha sığınsın)"*- buyurmuşdur *(əl-Buxari, Müslim).*

❖ Sübh namazının qılınmamasına çalışar: Allahın elçisi (s.a.v.) belə demişdir: *"Sizdən biriniz yatarkən şeytan onun üçün üç düyün bağlayar. Sonra gecə boyunca onu hər bir düyünlə vurar. Əgər oyanıb Allahı zikr edərsə, bir düyün açılar. Qalxıb dəstəmaz alarsa düyünlərdən ikisi açılmış olar. Namaz qılsa, bütün düyünlər açılar. Beləliklə, sağ-salamat və könlü rahat şəkildə səhərə çıxar, əks halda tənbəl və pis bir şəkildə sabahlar"* (Müslim).

❖ Camaatdan qaçar: Allahın elçisi (s.a.v.): *"Hər kim Cənnətin ortasını istəyirsə, camaatda olsun. Həqiqətən, şeytan iki nəfərdən tək başına qalanla olar"* – demişdir. *(ət-Tirmizi).*

❖ Xəlvətdə olan qadın və kişinin yanındadır: Allahın elçisi (s.a.v.) demişdir: *"Naməhrəm kişi və qadın xəlvətdə (yalnız) qalmasınlar. Bu halda üçüncüsü şeytan olur"*

---

[1] günahlarını doldurar, yəni günahının yerinə savab qoyar.
[2] yəni yaxşı əməllərini silər.

(İbn Macə).

❖ Bismilləhsiz[3] yeməyə ortaq olur: Allahın elçisi (s.a.v.) demişdir: *"Şeytan Allah adının anılmadığı yeməyi özünə halal edər"* (Müslim).

Yeməyə "bismilləh" deyərək başlamağı uşaqlara da öyrətmək lazımdır.

❖ Qəylulə[4] etməz: Allahın peyğəmbəri (s.a.v.): *"Günorta qəylulə edin. Həqiqətən, şeytanlar günorta vaxtlarında qəylulə etməzlər"*- buyurmuşdur *(Müslim)*.

Günorta namazından sonra qısa müddətə yatıb, istirahət edib dincələn kəs daha bir sünnəti də yaşatmış olur, yorğun olmur, gecə namazlarını, təhəccüd namazını qılacaq gücü özündə bərpa edir. Beləliklə, əhəmiyyətli vaxtları qəflətdə deyil, ibadətdə keçirir.

❖ İnsanlara daim zərər verməyə çalışır: Aişə *(r.a.)* xəstəliyi zamanı çox qanaxmasından dolayı Allahın elçisinə şikayətləndikdə: *"O, şeytanın oyunlarından birinin nəticəsidir"*- cavabını alır *(ət-Tirmizi)*.

Şeytan damarı tərpətdikdə qanama artar. Bu böyük düşməndən hər zaman Allaha sığınılmalıdır.

❖ Əyri yollarda çağırışlarını yayar: **«Bu, şübhəsiz ki, Mənim doğru yolumdur. Onu tutub gedin. Sizi** *(Allahın)* **yolundan sapdıracaq yollara uymayın...»** *(əl-Ənam, 153)*.

Allahın elçisi (s.a.v.) bu ayəni açıqlayarkən əliylə bir xətt çəkərək: *"Bu dümdüz olan, Allahın yoludur"*- deyərək, sonra o yolun sağ və sol tərəflərindən (düz xətdən fərqli olaraq böyük-kiçik qarışıq) xətlər çəkmiş və: *"Bunlar isə başqa yollardır. Bunlardan elə birisi yoxdur ki, şeytan həmin yolun başında oturub insanları ora çağırmasın"*- demişdir və sonra qeyd olunmuş ayəni oxumuşdur *(ən-Nəsai)*.

❖ Ölüm anında fəsad törədər: Allahın elçisi (s.a.v.) Allaha belə dua edərdi: *"Düşkünlükdən, şikayətlənməkdən, boğulma və yanmadan, ölüm əsnasında şeytanın yaxalamasından, Sənin yolundan geri dönmüş olaraq varmaqdan və (əqrəb) sancmasından ölməkdən sənə sığınıram"* (ən-Nəsai).

❖ Şeytanlar axşamın ilk saatlarında[5] yayılırlar: Allahın elçisi (s.a.v.): *"Axşamın ilk anı bitincəyə qədər uşaqlarınızı saxlayın. Çünki o, şeytanların gəzdiyi bir vaxtdır"*- buyurmuşdur *(Hakim)*.

❖ Əsəbilik halında gəlir: Allahın elçisi (s.a.v.) buyurmuşdur: *"Bir kəlmə bilirəm ki, o söylənilərkən sıxıntılar gedir. Kim şüurla* **"Əuzu billəhi minəş-şeytanir-racim"** *deyərsə, ondakı sıxıntılar gedər"* (əl-Buxari, Müslim).

Allahın elçisi (s.a.v.) bunu hirsindən üzü qızarmış və boynunun damarları şişmiş birinə özünə gələnə qədər demişdir.

❖ Şeytandan Allaha sığın: **«Əgər sənə Şeytandan bir vəsvəsə gəlsə, Allaha sığın. Şübhəsiz ki, Allah eşidəndir, biləndir»** *(əl-Əraf, 200; Fussilət, 36)*;

**«Və de: Ey Rəbbim! Mən şeytanların vəsvəsələrindən Sənə sığınıram!»** *(əl-Muminun, 97)*.

Buyrulmuş bu sığınma əmrlərindən [**"Əuzu billəhi minəş-şeytanir-racim"** və ya **"Əuzu billəhi min həməzətiş-şəyatin"** demək] başqa cin və insanlardan olan şeytandan Allaha sığınmaq üçün "ən-Nas" surəsini oxumaq da təsirlidir.

Quran oxumağa başlayarkən xüsusilə diqqətli olmaq və sığınmaq lazımdır: **«Quran oxumaq istədiyin zaman məlun Şeytandan Allaha sığın!»**

❖ Kürsi ayəsini oxuyana yaxınlaşmaz: Şeytan Əbu Hureyrəyə *(r.a.)* röyasında:

---

[3] Yəni bismilləh -Allahın adı ilə- demədən yeməyə başlamaq

[4] Qəylulə-zöhr (günorta) namazından sonra edilən qısa istirahət və yuxudur.

[5] günəş şəfəqləri sönərək qürub edərkən. El arasında buna şər qarışan vaxt deyilir.
Bu vaxt - günəşin şeytanın iki buynyzy arasında qırmızılaşaraq batdığı, əsr namazının qılınmasının məkruh vaxtıdır.

*“Yatmazdan əvvəl Ayətul-kürsünü oxuyanın yanında Allah tərəfindən göndərilən qoruyucu mələklər əksik olmaz və səhərə qədər şeytan ona yaxınlaşa bilməz”*- demişdir. Əbu Hureyrə (r) bunu Allahın elçisinə (s.a.v.) danışdıqda: *“O yalançı olduğu halda sənə doğru söyləmişdir”*- buyurmuşdur *(əl-Buxari)*.

❖ Əzan verilərkən qaçar: Allahın elçisi (s.a.v.) buyurmuşdur: *“Şübhəsiz ki, şeytan namaz üçün çağırış (əzan verilərkən) zamanı arxasına vura-vura yellənərək qaçar”* (Müslim).

Digər hədisdə belə ifadə var: *“Təşəhhüd zamanı şəhadət barmağını tərpətmək şeytana dəmir zərbəsindən daha şiddətli gəlir”* (Əhməd). Yəni şəhadət barmağı ona dəmir qamçı kimidir.

❖ Ramazan ayında zəncirlənir: Peyğəmbər (s.a.v.) demişdir: *“Ramazan ayı gəldikdə cənnət qapıları açılar, cəhənnəm qapıları bağlanar və şeytanlar zəncirlə bağlanar”* (ən-Nəsai).

❖ Gerçək bir tövbəyə qarşı çarəsizdir: **«Allahdan qorxanlara Şeytandan bir vəsvəsə toxunduğu zaman onlar** *(Allahın əmr və qadağanlarını)* **xatırlayıb düşünərlər və dərhal gerçəyi görərlər»** *(əl-Əraf, 201)*.

❖ Səmimi (ixlaslı) kimsələrə zərəri toxunmaz: «*(İblis)* **dedi: “Ey Rəbbim! məni azdırmağına əvəz olaraq and içirəm ki, mən də onlara** *(insanlara pis əməllərini, günahlarını)* **yaxşı göstərib onların hamısını yoldan çıxaracağam! Yalnız sənin sadiq bəndələrindən başqa!”»** *(əl-Hicr, 39-40)*.

Allah təala Özünə qeyri-səmimi edilən əməlləri qəbul etməz. Allahın elçisi (s.a.v.): *“Allah ancaq səmimi (xalis) olan, yalnız onun razılığını qazanmaq üçün edilən əməli qəbul edər”*- buyurmuşdur” *(ən-Nəsai)*.

Allah şeytana insana hökm edə biləcək bir rüsxət verməmişdir: **«Sənə uyan azğınlar istisna olmaqla, bəndələrim üzərində sənin heç bir hökmün olmaz!»** *(əl-Hicr, 42).* Onun rüsxəti ancaq Allaha iman etməyən və ya iman gətirdiyini söyləyib, imanın tələblərinə əməl etməyənlərədir. Çünki onlar bu halları ilə Allahı, Allahın yardımını buraxıb şeytanı və şeytanın yardımını qəbul etmişlər və ondan razı qalmışlar. Burada unutduqları bir məqam vardır ki, o da yalnız Allahın dostlarının zəfər çalmasıdır. Allahdan başqa dost edilmişlər, başda İblis olmaqla ilah edilmişlər ilahlığını inkar edəcəkdir.

Davamını Allahın elçisinin (s.a.v.) gətirdiyi ən böyük möcüzə olan Qurandan deyək. Şübhəsiz uğur Allah tərəfindəndir.

«**İş bitdikdə** *(cənnətliklər Cənnətə, cəhənnəmliklər də Cəhənnəmə daxil olduqda)* **Şeytan** *(onu məzəmmət edənlərə)* **belə deyəcək: “Allah sizə** *(pis əməllərinizə görə Cəhənnəmə düşəcəyiniz barədə)* **doğru vəd vermişdi. Mən də sizə** *(kömək edəcəyim haqda)* **vəd vermişdim, amma sonra vədimə xilaf çıxdım. Əslində mənim sizin üzərinizdə heç bir hökmüm** *(sizi özümə tabe edə biləcək heç bir qüdrətim)* **yox idi. Lakin mən sizi** *(günah işləməyə, Allaha asi olmağa)* **çağırdım, siz də mənə uydunuz. İndi məni yox, özünüzü qınayın. Nə mən sizin dadınıza çata bilərəm, nə də siz mənim dadıma. Mən öncə** *(dünyada)* **sizin məni** *(Allaha)* **şərik qoşmağınızı da inkar etmişdim** *(qəbul etməmişdim)*. **Həqiqətən, zalimləri şiddətli bir əzab gözləyir!”»** *(İbrahim, 22)*.

Yaşar Qurbanov
“İslam Nuru”(dini risalələr) kitabı